*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 10, 2025*
*Səh. 541-548*

https://doi.org/10.62837/2025.10.541

**MAHIR QƏRIBOV**
Tarix üzrə fəlsəfə doktoru
Bakı Dövlət Universiteti
Milli mətbuat tarixi
kafedrasının doktorantı
E-mail: mahir_garibov@yahoo.com
https://orcid.org/0009-0002-8183-5802

# BİRİNCİ TÜRKOLOJİ QURULTAY VƏ İLK TÜRK TARİX KONQRESİ KONTEKSTİNDƏ ORTAQ TARİX VƏ MƏDƏNİYYƏT MƏSƏLƏLƏRİ ƏHMƏD AĞAOĞLUNUN MİLLİ-İDEOLOJİ FİKİR SİSTEMİNDƏ

**Xülasə**

Əhməd Ağaoğlu Azərbaycan və Türkiyə mətbuatı tarixində, bütövlükdə türk dünyasında özünün mövqeyi ilə dərin iz buraxan ədiblərdən olmuşdur. Türk dünyasının böyük fikir adamlarından olan Ağaoğlu, hər zaman milliyyətçi-liberal mövqeyini qoruyub saxlamış və sözünü çəkinmədən deyən müstəqil jurnalist kimi, azad sözün, demokratik təfəkkürün tərəfdarı olmuşdur. Əhməd bəy əsərlərində milli qurtuluşa gedən yolun cəmiyyətin mədəni və təhsil səviyyəsinin inkişafından keçdiyini bildirirdi. Ağaoğlu azadlıq mücadiləsinin əsas faktoru kimi qadına bərabər hüquqların verilməsinə çağıran ilk ziyalılardan idi. Bakıda keçirilmiş Birinci Türkoloji Qurultay və daha sonra Türkiyədə təşkil edilən ilk Türk Tarix Konqresi bu istiqamətdə mühüm hadisələr, türk xalqlarının ortaq tarixi və mədəni köklərinin elmi əsaslarla tədqiqi, milli kimlik və modern düşüncə sisteminin formalaşmasına yönəlmişdi. Bu proseslərdə Əhməd Ağaoğlu kimi ziyalıların ideoloji baxışları mühüm yer tutur. Onun "Milli mədəniyyət", "Türk birliyi", "Qərb və Şərq sintezi" kimi fikirləri türkoloji hərəkatın intellektual təməlini təşkil etmişdir. Birinci Türkoloji Qurultay və ilk Türk Tarix Konqresi, türk dünyasının mədəni və elmi inteqrasiyası baxımından mühüm tarixi hadisələr idi. Bu tədbirlərin ideoloji ruhu Əhməd Ağaoğlunun türkçülük ideologiyası və milli-mədəni birlik konsepsiyası ilə dərin bağlılığa malik idi.

**Açar sözlər: Əhməd Ağaoğlu, Türkoloji Qurultay, Türk Tarix Konqresi, Türk dünyası, ortaq tarix, mədəniyyət.**

*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri №10, 2025*
*Səh. 541-548*

**MAHIR GARIBOV**

# COMMON HISTORICAL AND CULTURAL ISSUES IN THE CONTEXT OF THE FIRST TURKOLOGICAL CONGRESS AND THE FIRST TURKISH HISTORY CONGRESS WITHIN AHMAD AĞAOĞLU'S NATIONAL-IDEOLOGICAL THOUGHT SYSTEM

**Abstract**

Ahmad Agaoglu was one of the prominent literary figures who left a profound mark in the history of Azerbaijani and Turkish press, as well as in the broader Turkish world. As a significant thinker of the Turkish world, Agaoglu consistently maintained his nationalist-liberal stance and, as an independent journalist unafraid to speak his mind, he championed freedom of expression and democratic thought. In his works, Ahmad Bey emphasized that the path to national liberation depended on the advancement of society's cultural and educational levels. He was among the first intellectuals to advocate for equal rights for women as a fundamental element of the struggle for freedom. The First Turkological Congress held in Baku and later the First Turkish History Congress organized in Turkiye, were significant events in this regard. These congresses aimed to study the shared historical and cultural roots of Turkic peoples on a scientific basis and to contribute to the formation of national identity and a modern intellectual framework. The ideological perspectives of intellectuals like Ahmad Agaoglu played an important role in these processes. His ideas, such as "National Culture," "Turkish Unity," and the "Synthesis of East and West," laid the intellectual foundations of the Turkological movement. The First Turkological Congress and the First Turkish History Congress were historically important events in terms of the cultural and scientific integration of the Turkic world. The ideological spirit of these events was closely aligned with Ahmad Aghaoglu's ideology of Turkism and his concept of national-cultural unity.

Keywords: Ahmad Agaoglu, Turkological Congress, Congress Turkish History, Turkish world, common history, culture.

## Giriş

XIX əsrin sonu XX əsrin əvvəllərində türk dünyasının böyük mütəfəkkirlərindən olan Əhməd bəy Ağaoğlu türk xalqlarının gələcəyini ortaq mədəniyyət və ortaq tarix şüuru üzərində intellektual səviyyədə qurula biləcəyinə inanırdı. Bu dövrdə türk xalqlarının milli oyanışı və özünüdərk hərəkatı yeni bir mərhələyə qədəm qoydu. Milli birlik məsələsi, elmi-intellektual müstəvidə yüksək sürətlə irəlilədi. 1926-cı ildə Bakı şəhərində keçirilmiş Birinci Türkoloji Qurultay və sonradan 1932-ci ildə Türkiyədə təşkil edilən ilk Türk Tarix Konqresləri türk xalqlarının mədəni və tarixi kontekstə ortaq dəyərlərinin elmi əsaslarla müzakirə edilən mühüm tədbirlər oldu. Bu qurultay və kongresdə, mədəni-tarixi birliyin formalaşması, türk dili və ədəbiyyatı, tarixşünaslığı birləşdirici ortaq amil kimi

*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 10, 2025*
*Səh. 541-548*

dəyərləndirildi. Belə bir şəraitdə modern türkçülük hərəkatında intellektual simalardan biri olan Əhməd bəy Ağaoğlu inanırdı ki, türk xalqlarının ortaq tarix anlayışı, dil məsələləri elmi tədqiqatlar və mədəni əməkdaşlıq zəmnində formalaşdırılmalıdır. Bu fikirlər Birinci Türkoloji Qurultayda müzakirə edilən və yekunda səsləndirilən ideyalarla da səsləşirdi. Qurultay iştirakçıları türk xalqlarının ortaq əlifba, dil və tarix məsələlərini müzakirə edərkən yekunda ortaq əlifbaya keçid qərarlaşdırılmış və bunun tətbiq olunması görüş birliyinə varılmışdır. Ağaoğlu türk ictimai-siyasi fikir tarixinin mühüm nümayəndələrindən biri olmaqla həm Qafqaz, həm də Anadolu türklük hərəkatının ideoloji və institusional baxımdan inkişafına böyük töhfələr vermiş, bu fəaliyyətini dərin ictimai-siyasi dəyişikliklərin təsiri altında həyata keçirərək Türk dünyası üçün mühüm töhfələr vermişdir. Ağaoğlunun "mədəni birlik vasitəsilə siyasi sabitlik" prinsipini irəli sürməklə müasir cəmiyyət və yeni dünyəvi dövlət düşüncəsinin lideri ola bildi. Bu Cümhuriyyət düşüncəsi və təfəkkürünün intelektual və siyasi müstəvidə təzahürü idi. Türkçülüyün ideoloqlarından olan Əhməd Ağaoğlu müsəlman və türk cəmiyyətlərinin Qərb imperialistlərinə yem olmaması üçün bu xalqların şüuruna, psixologiyasına var gücü ilə təzyiq göstərmək, onları qəflətdən oyandırmaq mücadiləsinə qalxır, maarifçilik, xüsusən də dini dünyagörüş və mənəvi sahədə islahatlar aparmağı ziyalıların əsas vəzifəsi hesab edirdi. Ağaoğlu, türkçülüyün və islamın təəssübkeşi olaraq bu insanların şuurundakı "birləşdirici qüvvə"ni ortaya çıxarmağa çalışırdı.

***Ortaq tarix şüuru:*** Ağaoğlu hesab edirdi ki, türk xalqları yalnız etnik və ya coğrafi baxımdan deyil, həm də tarix və mədəni baxımdan bir-biri ilə sıx bağlıdır və bu bağlılığı elmi şəkildə şərh etmək vacibdir (Babaev, 2022, s. 105). Əhməd Ağaoğlu "Tanrı dağında" əsərində göstərir ki, "Kişilik yolu ilə getmək! Yerin, göyün, canlı-cansız, hər şeyin yaradanı Uca Tanrıya bu andı içirik: haqdan başqa bir kimsəyə uymayacağıq!.. Yürüyəcəyik! Başımız dik, ürəyimiz açıq, sözümüz ötkəm! Heç bir əngəl bizi durdurmayacaq! Sönmüş ocaqlarımızı işıqlandırmaq, dağılmış yurdumuzu qurmaq üçün yürüyəcəyik!" (Ağaoğlu, 2007, s. 89)

***Türkçülük və türk dünyası ideyası:*** Ağaoğlu türkçülük hərəkatının tarix, dil, ədəbiyyat, mədəniyyət sahəsində birləşmə istiqamətində əsas ideoloqlarından biri idi. O, türk xalqlarının ortaq dəyərlərini milli, mədəni, tarixi baxımından, həmçinin təhsilin inkişafında görürdü. Məhz bu düşüncənin nəticəsi idi ki, onun redaktorluğu ilə nəşr olunan mətbuat orqanlarında elm, təhsil hər zaman ön plana keçir, təhsil, elm və maarifi milli oyanışın bünövrəsi hesab edirdi.

1926-cı ildə Bakıda keçirilən qurultay dünya mədəniyyəti tarixində türk xalqlarının payının az olmadığını sübuta yetirməklə yanaşı türkoloqların və ictimaiyyətin diqqətini özünə cəlb etdi. Türk xalqlarının tarixində ictimai-siyasi əhəmiyyət daşıyan bu qurultada əsas müzakirə mövzularından biri "ortaq türk mədəniyyətinin əsasları" idi. Qurultay iştirakçıları türk xalqlarının dil, ədəbiyyat və etnoqrafiya sahələrindəki birgə araşdırmalarının əhəmiyyətini vurğulamışdılar. Bu

Ağaoğlunun ideyaları ilə səsləşməklə bərabər ortaq əlifba və dil islahatının təkcə texniki məsələ deyil, həmdə milli-mədəni inteqrasiyanın rəmzi olduğunu göstərirdi. Ağaoğlu üçün mədəniyyət təkcə keçmişin yadigarı deyil, həm də milli bütövlüyün, gələcəyin əsas dayağıdır. O, hesab edirdi ki, türk xalqları tarixlərini birgə tədqiq etməklə türklüyün etnoqrafik xəritəsini yenidən qura bilərlər.

***Milli, mədəni birlik:*** Onun fikrincə, bir millətin varlığını qoruyub saxlaya biləcəyi əsas sütunlardan biri mədəniyyətdir. Millətin birlikdə hərəkət etməsi üçün ortaq mədəni və intellektual şüur vacibdir. (Mammadova, 2024, s. 7). Ağaoğlu vaxtilə özünün əsərlərində də türkün keçib gəldiyi tarixi yola nəzər salır və göstərirdi ki, türklər tarix boyu milli birlik nəticəsində dünyanın dörd bir tərəfinə insaniyyət yaymış, mədəniyyət saçmışdır.

***Maarifçilik və müasirlik:*** Ağaoğlu Avropa elmi-maarif modelini türk dünyasının inkişafı üçün vacib sayırdı və təhsilin inkişafını milli-mədəni inkişaf üçün həlledici olduğunu göstərirdi. (Yaqublu, 2019, s. 160). Onun maarifçilik fəaliyyətində müasirləşmək və türklərin birliyi ideyası xüsusi yer tuturdu. Ə.Ağaoğlunun Azərbaycan, eləcə də bütöv türk dünyası ictimai və bədii fikir tarixində Şərq və Qərb düşüncə sisteminin daşıyıcısı kimi bənzərsiz, zəngin bədii-fəlsəfi irsə malik bir yazıçı-mütəfəkkir olaraq dünyagörüşünün müəyyənləşdirilməsi və dəyərləndirilməsi baxımından xüsusi əhəmiyyət kəsb edirdi.

### ***Birinci Türkoloji Qurultayda mədəniyyət və ortaq dil məsələsi***

1926-cı ildə Bakıda keçirilmiş Birinci Türkoloji Qurultayda twrk dünyasının müxtəlif bölgələrindən türkoloq və mədəniyyət sahəsində çalışan mütəxəssislər bir araya gəldi. Qurultayda əsas müzakirə mövzularından biri "ortaq türk mədəniyyətinin elmi əsasları" idi. Bu müzakirələrdə dil, əlifba islahatı, etnoqrafiya və ədəbiyyat sahələrində birgə əməkdaşlığın vacibliyi vurğulanırdı. Bu məqamlar Ağaoğlunun baxışları ilə vəhdət təşkil edirdi. Belə ki, Əhməd Ağaoğlu da özünün çox sayda əsər və məqalələrində göstərirdi ki, yeni XX əsr susmaq yox, təşkilatlanıb öz azadlığın və hüquqların uğrunda çalışmağı tələb edir. (Yaqublu N, (2019) s.159) O, mədəniyyətin yalnız keçmişin yadigarı olmadığını, həm də gələcəyin qurucu elementi olduğunu düşünürdü. Ağaoğlu üçün ortaq dil və əlifba məsələsi sadəcə texniki islahatdan ibarət yox, həm də mədəni inteqrasiyanın rəmzi idi (Mammadov, 2022). Ağaoğluna görə, türklərin tarixi yalnız etnik və ya coğrafi faktlarla məhdudlaşmamalı, onların dünya sivilizasiyasına verdiyi töhfələr nəzərə alınmalıdır. Bu, həm milli-mənəvi dəyərlər, həm də beynəlmiləl mədəni münasibətlərin harmoniyasını təşkil edir.

Hüquqşünas, siyasətçi, fikir adamı olan Əhməd Ağaoğlu jurnalist kimi də geniş intellektual potensialını cəmiyyətin maariflənməsi, lazım gəldikdə xalqa və idarəçilərə mesaj vermək istiqamətində qətiyyətli mövqedən istifadə etmişdir. Bu səbəbdən, o, ömrünün sonuna qədər qarşılaşdığı bütün təzyiq və çətinliklərə baxmayaraq qələmindən əl çəkməmişdir. Əhməd bəy Ağaoğlunun yaradıcılığında

mühüm yer tutan qəzetlərdən biri "Cumhuriyet" qəzeti olmuşdur. (Asker, Soğancıoğlu, (2020). s 209) On il ərzində 1929–1939-cu illəri əhatə edən dövr ərzində qəzetdə dərc olunan məqalələr həm Əhməd Ağaoğlunun ictimai-siyasi baxışları və düşüncələrinin öyrənilməsi, həm də onun yaşadığı dövrün ictimai-siyasi məsələlərinin tədqiqi baxımından mühüm bir mənbədir.

***Türk Tarix Konqresi və ortaq tarix konsepsiyası***

Əhməd Ağaoğlunun 1932-ci ildə Birinci Türk Tarix konqresində çıxışı Cümhuriyyətin tarix siyasətinin və bu siyasətlərdə ziyalılara verilən missiyanın əyani nümunəsidir. Keçmişə biganə qalmayan, onunla ciddi məşğul olan və gələcəyə daşıyan nəsillər yetişdirmək həm ziyalıların, həm də pedaqoqların üzərinə düşən mühüm bir vəzifədir. Bu çıxış, bu gün də tarixi şüurun və milli yaddaşın təbliğində bizə düzgün istiqamət göstərən dərin məna daşıyır.

Ağaoğlu Cümhuriyyətin elan edilməsi ilə türk millətinin tarixi bir oyanış prosesinə girdiyini göstərir. Ağaoğlu bu yeni dövrün başlanğıcını "yeni yolun açılması" kimi təyin edir və bu yolun türk millətinin öz tarixi kimliyini yenidən dərkin simvolu olduğunu vurğulayır. Bu yanaşma göstərir ki, onun tarixi dərk etməsi təkcə keçmişi öyrənmək deyil, həm də bu biliklərdən millətin gələcəyi üçün istifadə etmək tələbidir. "Bu yola qədəm qoymaq, onu daha da inkişaf etdirmək, genişləndirmək, onu daha əhatəli və əhatəli şəkildə araşdırmaq, araşdırmaq türk ziyalılarının, gənclərinin vəzifəsi deyilmi? deyən Ağaoğlu türk ziyalılarının və gənclərin üzərinə böyük bir məsuliyyət qoyur. Onun fikrincə, tarixi şüur təkcə qorunub saxlanmamalı, həm də dərinləşdirilməli, əhatə dairəsi genişləndirilməli, metodologiyası zənginləşdirilməlidir. (Ağaoğlu, (1932) s. 269).

Ağaoğlu türk millətinin tarixi köklərinin Orta Asiyaya gedib çıxdığını və türklərin dünya sivilizasiyasına mühüm töhfələr verdiyini müdafiə edib. Bu fikirlər Birinci Türk Tarixi Konqresində səsləndirilmiş və Türk Tarixi tezisinin təməl düşüncəsini təşkil etmişdir. (Ağaoğlu. (1927) s. 17) Ağaoğlunun millətçilik anlayışı türk millətinin mədəni və tarixi birliyinə əsaslanır. Onun Türk Tarixi Tezisinə verdiyi töhfələr təkcə tarixi perspektivlə məhdudlaşmamış, həm də hüquq sistemlərinin müqayisəsi yolu ilə türk millətinin özünəməxsus kimliyini və keçmişini işıqlandırmaq məqsədi daşıyırdı. Sonrakı illərdə Türkiyədə keçirilən Türk Tarix Konqresləri də türk dünyasının ortaq tarixini elmi baxımdan araşdırmaq məqsədini güdürdü. O, türklərin tarixinin ayrı-ayrı xalqlar üçün yox, bütöv türk dünyası üçün əhəmiyyət kəsb etdiyini vurğulayırdı. Bu milli qüruru gücləndirməklə yanaşı, türk dünyası arasında intellektual və mədəni əlaqələrin inkişafına xidmət edirdi (Orucova, (2022) s.411)

Ağaoğlunun ideya və yazıları əlbəttə ki, türkoloji və tarixi mühitdə intellektual müzakirələr üçün bir ideya məfkurə nümunəsinə çevrilmişdir. Bir il sonra Cümhuriyyətin 10-ci il nitqində Mustafa Kamal Atatürkün də Türk millətinin milli-mənəvi dəyərləri və yüksək xarakterinə uyğun fikirlər səsləndirməsinin şahidi

oluruq. Beləcə mədəniyyətin milli varlıq üçün mühüm amil kimi təqdim olunması, türk dünyasında milli birlik və şüurun formalaşması məsələləri Ağaoğlunun düşüncə sistemində başlıca rol oynamışdır.

Əhməd Ağaoğlu "Cumhuriyət" qəzetindəki yazılarında da liberal-milliyyətçi düşüncənin mahiyyətini əks etdirir. O, fikirlərini qısa, məntiqi ardıcıllıqla və öyrədici dildə təqdim edir. Onun yazılarında azadlıq təkcə bir hüquq kimi deyil, həm də mənəvi məsuliyyət kimi dəyərləndirilir. Ona görə, azadlıq yalnız dövlətin məhdudlaşdırmaması deyil, həm də fərdin özünü tərbiyə edə bilməsi deməkdir. Bu yanaşma, Qərb liberalizmi ilə İslam-Türk əxlaqı anlayışını birləşdirməyə yönəlmiş bir nümunədir. Ağaoğlu azadlığı "mədəni vətəndaş olma şüuru" kimi izah edir. O, daha əvvəlki dövrlərdən müdafiə etdiyi bir mövqeyi davam etdirir: insan hüquqları və qadının ictimai həyatda fəal iştirakı zərurətidir.

Ağaoğlunun yazılarında "Türk aləmi" anlayışı da mühüm yer tutur. O, bunu irqi deyil, mədəni və sivil bir birlik kimi görür: "Türk aləmi ortaq dil, əxlaq, tarix şüuru ətrafında birləşmiş xalqların mədəniyyətinin bütövlüyüdür". Bu fikir Ziya Göyalpın mədəni milliyyətçilik düşüncəsi ilə oxşar olsa da, Ağaoğlunun daha liberal və beynəlmiləl aspektdəki yazıları göstərir ki, milliyyətçilik qapalı yox, açıq və tərəqqipərvər şəkildə təqdim olunmalıdır. Bu, onun "Qərbdən ilham al, amma özün kimi qal" prinsipinə tam uyğundur. Əhməd Ağaoğlunun "Cümhuriyyət"dəki yazıları bir ziyalı kimi həm dövrün modernləşmə təşəbbüslərini dəstəkləmiş, həm də fərdi azadlıqların daralmasına qarşı xəbərdarlıq missiyasını daşımışdır.

Birinci Türkoloji Qurultay və İlk Türk Tarix Konqresi mədəni-tarixi inteqrasiyanın həm ideya, həm də praktika səviyyəsində hərəkətverici qüvvəsi olmuş və Ağaoğlunun ideoloji xətti də bu proseslərin inkişafı zəmnində mühüm rol oynamışdır. Onun Birinci Türk Tarixi Konqresində iştirakı və təqdim etdiyi fikirlər onun türk millətinin tarixi-mədəni birliyinə və bu birliyin elmi əsaslar üzərində qurulmasına inamını ortaya qoyur. Ağaoğlunun ideoloji düşüncələri Türkiyə Cümhuriyyətinin modernləşmə prosesinə mühüm töhfələr verib. Onun Birinci Türk Tarixi Konqresindəkı təqdimatı həm dövrün fikri atmosferinin, həm də türk tarixi tezisinin formalaşma prosesinin başa düşülməsi baxımından əhəmiyyətli bir dönüş nöqtəsidir. Ağaoğlunun sözlərinə görə, Millət ortaq iradəyə əsaslanan və birlikdə yaşamaq iradəsini göstərən bir quruluşdur. Millət ideya və fəaliyyət sahəsində ortaq məqsəd daşıyan insanlardan ibarətdir və bu birlik güclü ictimai quruluºun meydana gəlməsini təmin edəcək. Onun Konqresə verdiyi töhfələr onun təkcə siyasətçi və ya jurnalist deyil, həm də tarixi şəxsiyyətin qurulması istiqamətində intellektual səylərdə mühüm fiqur olduğunu ortaya qoydu. Milliyyəti din üzərində qurmağa çalışanların olduğunu bildirən Ağaoğlu, bunun tək bunun kifayət etmədiyini bildirərək, milliliyin əsasının birinci olaraq dil və onun bütün növlərinin, yəni ədəbiyyat, incəsənət, musiqi, ikincisi din, üçüncüsü irq olduğunu, milliliyin də bu üç fərqli keyfiyyətin birləşməsindən əmələ gəldiyini göstərir. Ağaoğlu türk millətinin

tarix səhnəsindəki varlığını önə çəkən mülahizələri ilə türk tarixinin ümumbəşəri sivilizasiyalardakı yerini müdafiə etmiş, elmi tarix anlayışının qurulmasına böyük töhfə vermişdir. Ağaoğlu milləti könüllü nəsnələr üzərində quraraq etnik millətçiliyin tərəfdarı olmadığını göstərir. Bu baxımdan Ağaoğlunun Birinci Türk Tarixi Konqresindəkı çıxışını həm Cümhuriyyət dövrü tarixşünaslığında, həm də milli kimlik mövzusuna mühüm töhfə kimi dəyərləndirmək olar. Hədəf müsəlman olanda bir müsəlman kimi, bir türk olanda türk kimi kəskin mövqe tutur, barışmaz münasibətini bildirirdi. Əhməd Ağaoğlunun milli mücadiləsi vətəndaş sülhündən hüquqi mühakiməyədək, milli təəssübkeşlikdən siyasi təşkilatlanmağadək gərgin məzmunlu bir yol qət etmişdir. (Əhmədova (2019), s 406) Əhməd Ağaoğlu şəxsiyyətinin, mənəviyyatının bütövlüyü, birmənalılığı haqqında düşünərkən, adətən siyasətlə məşğul olan adamlara haqq qazandırırlar ki, "çeviklik", "dəyişkənlik", qarışıq vəziyyətlərdən baş çıxarmaq "fərasətliliyi" qəbul edilən, məqbul hal sayılır. Lakin tarix, real faktlar Ə.Ağaoğlu istisnasını da örnək kimi yaşatdı. (Musayeva (2019) s. 407)

Ağaoğlunun "Köhnə biganəliyi bir kənara qoyub bütün sevgimizlə, həyəcanımızla iş sahəsinə köklənmək bizim borcumuz deyilmi?" çağırışında türk millətinin keçmişə laqeydliyini aradan qaldırmalı və üzərinə düşən tarixi vəzifələri yerinə yetirməli olduğu ifadə edilir. (Ağaoğlu (1932) s. 268) "Sevgi və həyəcan" ifadəsi bu prosesin emosional və intellektual bağlılıq tələb etdiyini göstərir. Bu, tarixi şüurun təkcə akademik intizam deyil, həm də milli varlıq, milli şüur məsələsi olduğunu ortaya qoyur. "Bu sevinci, iş həvəsini, xüsusən də bizə əmanət olunan türk gənclərinə aşılamaq biz müəllimlər üçün müqəddəs vəzifə və peşə borcu deyilmi?" deyən Ağaoğlu müəllimləri təkcə biliklərin ötürücüləri deyil, həm də tarixi şüurun yaradıcıları kimi görür, bu məsuliyyətin müqəddəs bir vəzifə olduğunu vurğulayır. (Ağaoğlu (1932) s. 269) O, həmdə bu tarixi şüurun nəsildən-nəslə ötürülməsində müəllimlərin rolunu yüksək qiymətləndirir.

**Nəticə**

Birinci Türkoloji Qurultay və İlk Türk Tarix Konqresi türk xalqlarının ortaq mədəniyyət və ortaq tarix şüurunun möhkəmləndirilməsi baxımından əhəmiyyətli mərhələlər idi. Əhməd bəy Ağaoğlunun ideoloji konsepsiyası mədəniyyətin milli rolu, maarifin əhəmiyyəti, türkçülük və ortaq tarix şüur fonunu zənginləşdirmişdir. Yazılarında milli birlik və həmrəyliyə çox böyük önəm verən Ağaoğlu "Mən və ya siz kim olmağımızdan asılı olmayaraq, ortaq və müqəddəs amallar uğrunda mübarizə apararkən əl-ələ verib, ürəkdən-ürəyə birləşək, mənəvi birliyimizi dünyaya çatdıraq!" çağırışı etmişdir. Ağaoğlunun ideyaları bu gün də türk dünyasında milli birlik, mədəni və elmi araşdırmalar üçün önəmli istinad olaraq qalmaqdadır. "Türklük bölünmə qəbul etməyən bir tamdır. Harada olursa olsun ona xidmət etmək mübarəkdir, müqəddəsdir" (Ağaoğlu, (2010), s. 73) deyən Əhməd bəy hər zaman

təmsil etdiyi xalqın azadlığı və istiqlalı üçün çalışmış, müsəlman türk millətinin birliyi, yüksəlişi, ləyaqət və namusunu bütün varlığı ilə müdafiə etmişdir.

## Ədəbiyyat

Ağaoğlu A, (1927), Üç Medeniyet, İstanbul: 113 s.
Ağaoğlu A, (1932), *"İptidaî Türk Aile Hukuku ile İptidaî Hindo-Avrupaî Aile Hukuku Arasında Mukayese"* Türk Tarih Kongresi, Ankara s. 261-269
Ağaoğlu A (2007) Seçilmiş əsərləri, Bakı "Şərq-Qərb" nəşriyyatı, ss 78-90
Ağaoğlu A. (2010),Mütareke ve Sürgün Hatıraları, İstanbul: Bilge Yayın Evi, 163 s.
Asker, A. & Soğancıoğlu, Ş. (2020). Ahmet Ağaoğlu'nun "Cumhuriyet" Gazetesi Bibliyografyası. Türk Dünyası Bilimsel Araştırmalar Dergisi, 1(2), 209-220.
Babaev, B. (2022). ОСОБЕННОСТИ ПЕРЕХОДА НАЦИОНАЛИЗМУ В ПОЛИТИЧЕСКИХ ВЗГЛЯДАХ АХМЕДА БЕКА АГАОГЛУ. Elmi əsırler, 2(39), 103-110.
Mammadova, A. (2024). Thinkers who left a trace in the Turkish world: Ali bey Huseynzade and Ahmed bey Agaoglu. Philology and Art Studies. 136 p.
Əhmədova F. (2019) "Əhməd Ağaoğlunun Azərbaycan ictimai-siyasi mühitinə gətirdiyi yeni dəyərlər", "Əhməd bəy Ağaoğlunun anadan olmasının 150 illiyinə həsr olunmuş Beynəlxalq Simpozyumun materialları" Bakı, 395-406 s
Mirəhmədov Ə. (2014) "Əhməd bəy Ağaoğlu", Bak, 264 s.
Musayeva İ. (2019) "Əhməd Ağaoğlunun Azərbaycan ictimai-siyasi mühitinə gətirdiyi yeni dəyərlər", "Əhməd bəy Ağaoğlunun anadan olmasının 150 illiyinə həsr olunmuş Beynəlxalq Simpozyumun materialları" Bakı, 407-424 ss.
Orucova, A. (2022). Ahmad bey Agaoglu and his work "In a country of free people". Philology and Art Studies. 112 p.
Yaqublu N. (2019) "Əhməd Ağaoğlunun Azərbaycan ictimai-siyasi mühitinə gətirdiyi yeni dəyərlər", "Əhməd bəy Ağaoğlunun anadan olmasının 150 illiyinə həsr olunmuş Beynəlxalq Simpozyumun materialları" Bakı, 157-160 ss.

**Rəyçi: filologiya elmləri doktoru Vüqar Əliyev**